***Vahid Aslanlı***

***26 fevral***

*... Yer deyilən*
*planetdə -*
*Xocalı adlı məmləkətin –*
*Türk soyadlı millətinin*
*Təqvimindən kabus*
*Olub asıldı o gün!*
*Neçə-neçə körpənin,*
*Neçə-neçə qocanın,..*
*Xocalının yası oldu o gün!*
*Dünya*
*"...yan" adlı şeytan üzünü*
*insanlardan gizlədə bilmədi*
*bir daha,*
*o gün -*
*şeytanı yaratdığı üçün*
*Xocalı bakirə səsiylə*
*Etiraz etdi Allaha...*

**Xocalı**

... Xocalı - içində tənha göz yaşı,
Xocalı - içində batan haraydı,
Bir gün oyanacaq yatan haraydı!
Xocalı haraydı haqsızlıqlara,
Körpə harayıdı qoca dünyanın,
Qadın harayıdı, qız harayıdı
Çırpınan, hıçqıran, zorlanan arın,
Xocalı uçsa da haray saldı ki,
Qalan qeyrətimiz uçmasın barı...

***Aslan V. 26 fevral ; Xocalı : şeirlər // Ulduz. - 2009. - № 7. - S.78-81.***